# CMS Davranış Kodu

## CMS-COM-STA-0001

| | |
|---|---|
| **Sənədə məsul şəxs:** | V.Novruzov |
| **Funksiya:** | Daxili audit |
| **Sənədin administratoru:** | Zahra Khanmammadova |
| **Səviyyə:** | Səviyyə 1 |
| **Buraxılış tarixi:** | 01 mart 2016 |
| **Növbəti baxılma tarixi:** | 01 mart 2017 |

**Buraxılış xülasəsi**

| Buraxılış nömrəsi | Dəyişikliyin təsviri | Buraxılış tarixi |
|---|---|---|
| 01 | DCR 38-16 | 01 mart 2016 |
| | | |

## Mündəricat



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

## 1. Direktorlar Şurasının Bəyanı

CMS əməliyyatlarını apardığı zaman səmimiyyət və prinsipiallığa görə mükəmməl reputasiyaya malikdir. Öz tərəfdaşlarımızın etibarını qorumaq Şirkətdə olan hər kəsin məsuliyyətinə aiddir. Bizim Biznes və Etik davranış Kodumuz bizim hər birimizin bu öhdəliyi yerinə yetirməsinə kömək üçün nəzərdə tutulub.

Bu Kod bizim biznesi hə cür həyata keçirməyimizə dair CMS siyasi yanaşmalarını izah edir. Direktorlar şurasının hər bir işçisi, rəhbəri və üzvləri bu Kodu anlamalı və onun prinsiplərinə əməl etməliyik. Biz inanırıq ki, öz etik prinsiplərimizi biznes qərarlarımıza tətbiq edəndə bundan Şirkət uğur qazanır.

Bizim dəyərlərimiz biznesimizi sosial baxımdan məsuliyyətli və etikaya uyğun tərzdə həyata keçirmək sahəsində fəaliyyətlərimizi istiqamətləndirir. Bir şirkət və fərdlər olaraq, qanuna hörmətlə yanaşır, insan hüquqlarını dəstəkləyir, ətraf mühiti mühafizə edir və əməliyyatlarımızda mükəmməlliyə nail oluruq.

Bu Kod çətin vəziyyətlərin öhdəsindən gəlməkdə bizə kömək üçün nəzərdə tutulmuş təlimatnamədir.

Biz sizi onu oxumaq, anlamaq və ona əməl etməyi təkidlə xahiş edirik. Bu Kodu pozan hər hansı amili görsəniz, onu bizə bildirməyinizi xahiş edirik. Şirkət sizin narahat edən məsələləri ciddi araşdıracaq və sizə münasibətdə qisas əməllərinə qarşı sərt tədbirlər görəcək.

Dərin hörmətlə,

Şura Sədri



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

Bu Kodda siz qanun-qaydalar, başqaları ilə bağlı gözlənti və təlimatlara dair praktiki məsləhətləri oxuyacaqsınız. Biz bu sənədə öz düzgün mühakimənizdən istifadə etməyinizə kömək üçün əlavə məlumat mənbələrinə dair göstərişlər də daxil etmişik.

## 2 MÜQƏDDİMƏ

## 3 İNSANLAR VƏ TƏHLÜKƏSİZLİK

1.0 Sağlamlıq, Təhlükəsizlik, Ətraf Mühit və Sosial Fəaliyyət

2.0 Davamlı İnkişaf

3.0 Bərabər İmkanlar

4.0 Zorakılıq

5.0 İnsan Hüquqları

## 4 RÜŞVƏTXORLUQ ƏMƏLLƏRİ İLƏ MÜBARİZƏ

1.0 Rüşvətxorluq və Korrupsiya

2.0 Dövlət Rəsmiləri ilə İş

3.0 Hədiyyələr və Qonaqpərvərlik

4.0 İcmalarla İş və Onların Hüquq və Ləyaqətinə Lazımi Hörmət

5.0 Maraqlar Toqquşması

6.0 İnsayder Sövdələşməsi

7.0 Çirkli pulların yuyulması

8.0 Siyasi Fəaliyyət

## 5 MİLLİ VƏ BEYNƏLXALQ TİCARƏT

1.0 Antitrast (Rəqabət) Qanunu

2.0 İxracata Nəzarət və Sanksiyalar

3.0 İdxala Nəzarət və Sanksiyalar

**6 MƏLUMAT VƏ AKTİVLƏRİN MÜHAFİZƏSİ**

1.0 Aktivlərin Mühafizəsi

2.0 Məlumat Özəlliyi və Mühafizəsi

3.0 Qeydlərin İdarə edilməsi

**7 BİLDİRİŞLƏR**

1.0 Biznesə dair bildiriş

2.0 İctimaiyyət üçün açıqlama

**8 CMS-İN ÜMUMİ BİZNES PRİNSİPLƏRİ**

1.0 Bizim Prinsipə uyğun Yaşayış

2.0 Bizim Dəyərlər

3.0 Davamlı İnkişaf

4.0 Məsuliyyətlər

5.0 CMS-in Ümumi Biznes Prinsipləri

**9 LÜĞƏT**





*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ” İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

# 2. Müqəddimə

Etik biznes davranış prinsipləri Davranış Kodunda əksini tapmışdır. Bu Davranış Kodu CMS-in sizdən və sizin CMS-dən gözlədiyiniz davranış tərzini təsvir edir. Kodun dili hüquqi dil deyil və sadəcə qaydalar toplusundan daha geniş məna kəsb edir. Buna görə də Kodu mühüm təlimat kimi nəzərdən keçirmək lazımdır. Davranış Kodunun əsasında duran dəyərlər aşkar və universaldır-səmimiyyət, prinsipiallıq və insanlara hörmət. Sizin davranışınız sizin həmin dəyərlərə uyğun nə cür yaşamağınız, Kodda verilmiş prinsiplərin məram və məqsədinə hansı səviyyədə uyğun gəlməyinizə əsasən qiymətləndiriləcək.

Bəzi hallarda tələb olunanları tam anlamaq üçün daha geniş təfərrüatları ilə verilmiş məlumatı oxumaq lazım gəlir. Biz növbəti səhifələrin aşağı tərəfində həmin əlavə materialı tapa biləcəyiniz yer barədə sizin üçün MƏLUMAT daxil etmişik. Siz həmçinin bu Kodda əksini tapmış mövzulara dair təlimə şəxsi dəvətnamələri qəbul etməyə görə də məsuliyyət daşıyırsınız.

## CMS-İ MƏLUMATLANDIRMAQ

Bu Kodun bir çox hissələrində sizdən "CMS-İ MƏLUMATLANDIRMAQ", sizi narahat edən məsələləri bildirmək və ya məsləhət aramağın gözlənildiyi müxtəlif vəziyyətlərlə rastlaşacaqsınız. Siz bunu aşağıda verilmiş şəxslərdən hər hansı birinə bildiriş etmək və ya deməklə edə bilərsiniz:

- öz rəhbər şəxs və ya supervayzeriniz
- bunlara dair söhbət etmək, yaxud da email və ya məktub göndərmək üçün özünüzü rahat hiss edə biləcəyiniz hər hansı rəhbər CMS nümayəndəsi. Məsələn, Hüquqi Məsuliyyət Rəhbəri, İnsan Qaynaqları və ya SƏTƏM Rəhbəri; yaxud da
- CMS Yardım xətti (CMS Hüquqi Məsuliyyət Rəhbərinin telefon nömrəsi) və ya compliance@caspmarine.com e-mail ünvanı vasitəsilə.

Yardım xətti və email ünvanı gündə 24 saat, həftədə yeddi gün açıqdır. Yardım xəttinə müraciət edən fərdlər təşkilatdakı təcrübəli, müstəqil şəxslə rahatlıqla söhbət etmək imkanına malikdirlər. Onların bildirdikləri narahatlıqlar müvafiq hadisə idarəetmə və təhqiqat müddəalarına uyğun qeyd edilir və nəzərdən keçirilir.

Bu Kodda biz onun pozuntusunun ciddi nəticələr vermək ehtimalının olduğu xüsusi sahələri qeyd etmişik. Lakin bütün pozuntular işdən azad edilmə, bəzi hallarda isə, cərimələnmə və həbs qəti imkan tədbiri kimi ciddi nəticələrə səbəb ola bilər.

## BU FƏSİLDƏ VERİLƏNLƏR

- Sağlamlıq, Təhlükəsizlik və Ətraf mühit (SƏTƏM) və Sosial Fəaliyyət (SF)
- Davamlı İnkişaf

- Bərabər İmkanlar
- Zorakılıq
- İnsan Hüquqları

# 3. İNSANLAR VƏ TƏHLÜKƏSİZLİK

CMS insanlara heç bir zərər yetirməmək və ətraf mühiti mühafizə etmək məqsədi daşıyır. Siz başqa insanlara ədalətli və hörmətlə yanaşmalısınız. CMS mükəmməl bir şirkətdir və orada ayrı-seçkilik və zorakılıq yolverilməzdir.

## 1.0 SAĞLAMLIQ, TƏHLÜKƏSİZLİK VƏ ƏTRAF MÜHİT (SƏTƏM) VƏ SOSİAL İŞ (Sİ)

Biz qürur duya biləcəyimiz SƏTƏM və SF qeydinə malik olmaq üçün bu məqsədlərə uyğun olan xidmətlər göstərməklə yanaşı, insanlara zərər vurmamaq və ətraf mühiti mühafizə etmək məqsədinə sadiqik. yaxşı qonşu olmaq və davamlı inkişafa töhfə vermək üçün biz öz müştəri, səhmdarlarımız və cəmiyyətin etibarını qazanmaq məqsədi daşıyırıq.

Bu məqsədlər və digərləri CMS Təhlükəsizlik İdarəetmə Sisteminə (TİS) daxil edilmişdir. Hər bir CMS şöbəsindən qanunlara riayətetməni təmin etmək və işin davamlı təkmilləşdirilməsini təmin etmək üçün nəzərdə tutulmuş SƏTƏM və İP idarəetməsinə sistematik yanaşmaya malik olmaq tələb olunur.

Hər bir CMS şöbəsi SƏTƏM və İP təkmilləşdirilməsi üzrə hədəflər müəyyən etməli, iş icra səviyyələrini ölçməli, qiymətləndirməli və bildirməlidir. CMS şöbələri həmçinin, CMS əməliyyat nəzarəti altında olan podratçı və müştərək müəssisələrin TİS-ə uyğun SƏTƏM və İP idarə etdiklərini də təmin etməlidir.

TİS-də verilmiş məqsədləri dəstəkləmək üçün CMS SƏTƏM və İP bizim əməliyyat və layihələrimizin cəmiyyət və ətraf mühitə təsirlərinin idarə edilməsinə dair tələblərin yeganə mənbəyidir.

SİZİN MƏSULİYYƏTİNİZ

Siz SƏTƏM və İP öhdəlikləri və siyasətini anlamalı, CMS Təhlükəsizliyi İdarəetmə Sistemi və BP-nin Qızıl Qaydalarına riayət etməlisiniz.

## 2.0 DAVAMLI İNKİŞAF

CMS üçün davamlı inkişaf Azərbaycanın artan Dəniz və Neft-qaz Sənayesinin ehtiyaclarını iqtisadi, ətraf mühit və sosial baxımdan məsuliyyətli şəkildə təmin edilməsinə kömək etmək deməkdir. CMS-in davamlı inkişaf öhdəliyi bizdən qısa və uzun müddətli maraqlarını tarazlaşdırmaq, iqtisadi, sağlamlıq, təhlükəsizlik, ətraf mühit və sosial məsələlərinin biznes qərarlarına inteqrə etməyi tələb edir.



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

Davamlı inkişaf düzgün əməliyyat aparmağa imkan verən vasitədir və CMS davamlı nəticələrə nail olmaq üçün özünün bütün fəaliyyətləri çərçivəsində davamlı inkişafı daxil edir. Yeni mənfəət imkanları yaratmaq, öz qonşularımızın ehtiyaclarına hörmət etməklə yanaşı, texniki, qeyri-texniki və maliyyə risklərini azaltmaq məqsədilə, bu bizdən öz müttəfiq tərəfdaşlarımızla müntəzəm əməkdaşlıq etmək və rəylərini nəzərə almağı tələb edir.

SİZİN MƏSULİYYƏTİNİZ

Siz CMS-in sağlamlıq, təhlükəsizlik, ətraf mühit və sosial fəaliyyət tələblərinə əməl etməlisiniz. Hər bir biznes aşağıdakı məqsədləri daşımalıdır: davamlı sosial mənfəətlər yaratmaq; işçi, podratçı və qonşuların sağlamlıq və təhlükəsizliklərini qorumaq; icmada pozuntuları minimallaşdırmaq; təhlükəli emissiyaları azaltmaq; ekosistem və biomüxtəlifliyə təsirləri minimallaşdırmaq; enerji, su və digər qaynaqlardan səmərəli istifadə etmək.

## 3.0 BƏRABƏR İMKANLAR

CMS özünün məşğulluqla bağlı qərarlarının müvafiq ixtisas, fərqlənmə, iş və digər işlə bağlı amillərə əsaslandığını təmin edir. CMS məşğulluqla bağlı qanunsuz ayrı-seçkiliyin qarşısını qətiyyətlə alır.

SİZİN MƏSULİYYƏTİNİZ

İşlədiyiniz hər bir kəsə hörmət edin və onlara münasibətdə CMS-in mühüm dəyərlərinə uyğun ədalətli davranın. Siz müxtəlifliyin dəyərini anlamalı və heç zaman ayrı-seçkiliyə yol verməməlisiniz.

PRİNSİPLƏR

- Siz işə götürmə, dəyərləndirmə, vəzifə yüksəlişi, təlim, inkişaf, nizam-intizam, kompensasiya və xitam vermə qərarlarınızı yalnız ixtisas, fərqlənmə, iş göstəricisi və biznes məsələlərinə əsasən qəbul etməlisiniz
- İrq, dərinin rəngi, dini mənsubiyyət, yaş, cinsi mənsubiyyət, cinsi oriyentasiya, ailə durumu, əlillik, etnik və ya milli mənsubiyyətə əsasən ayrı-seçkiliyə yol vermək olmaz.
- Təsir edə biləcək yerli qanunvericilik və mədəni amillərdən məlumatlı olun

ÖZÜNÜ YOXLAMAQ

- Siz ədalətlisinizmi və hörmət edirsinizmi?
- Başqa insanların rəylərini nəzərə alırsınızmı?
- Sizin şəxsi hiss, əvvəlcədən mühakimə və ya üstünlükləriniz qəbul etdiyiniz qərarlara təsir edirmi?
- Yerli təcrübə və ənənələri bilirsinizmi?

## 4.0 ZORAKILIQ

CMS zorakılıq, alçaldıcı, təhdidedici və ya düşmənçilik hərəkəti, əməli və ya davranışına qarşı dözümsüz yanaşır. Siz bir mədəniyyətdə məqbul olduğu halda, digərində məqbul olmayan hər hansı hərəkət və ya davranışlara qarşı xüsusilə həssas olmalısınız.

SİZİN MƏSULİYYƏTİNİZ

İnsanlara hörmətlə yanaşın və uyğun hesab edilməyən vəziyyətlərə yol verməyin. Əgər düşmənçilik, təhdidedici və ya alçaldıcı davranışlarla qarşılaşsanız, buna qarşı çıxın. Zorakılıq nizam-intizam tədbirinin görülməsi və işdən azad olma ilə nəticələnə bilər.

PRİNSİPLƏR

- Başqa insanları fiziki və ya şifahi təhdid etməyin və ya alçaltmayın.
- Heç zaman qeyri-uyğun zarafat və ya qeydlər etməyin. Əgər hər hansı hərəkətin qeyri-uyğun olduğundan əmin deyilsinizsə, bunun məhz bu cür olduğunu qəbul edin.
- Heç vaxt təhqiredici və ya həqarətli material, o cümlədən şəkillər, paylamayın və ya nümayiş etdirməyin.
- Əgər hər hansı şəxsin hərəkətləri və ya davranış sizi məyus edərsə, həmin şəxsə sözünüzü deməyə qorxmayın.

## 5.0 İNSAN HÜQUQLARI

Biz öz fəaliyyətlərimizi BMT-nin Beynəlxalq İnsan Hüquqları Bəyannaməsində əksini tapmış insan hüquqlarına hörmət edəcək şəkildə həyata keçiririk və Beynəlxalq Əmək Təşkilatının əsas konvensiyaları bizim əməliyyat lisenziyamızı dəstəkləyir.

CMS-in insan hüquqlarına hörmətlə yanaşması korporativ siyasətlərə sədaqət, tətbiq edilən qanun-qaydalara riayətetmə, tərəfdaşlarımızla müntəzəm müzakirə və iş birliyi, birbaşa və ya dolayısı ilə işlədiyimiz icmaların ümumi rifahına yardım etmək də daxil olmaqla, bir neçə mühüm elementlərdən ibarətdir.

Bizim bu sahədəki öhdəliklərimizə TİS, bu Davranış Kodu və aşağıda verilmiş müxtəlif sahələrdə tətbiq edilən başqa siyasətlər dəstək verir:

- Sosial Fəaliyyət;
- İnsan Qaynaqları və əlavə olaraq, Müxtəliflik və Daxiletmə; və
- Podrat Müqaviləsinin Bağlanması və Satınalma.

Biz standartlarımıza uyğun standartlara əməl edən biznes tərəfdaş və təchizatçılarla iş birliyi qurmağa çalışırıq.

Bütün işçilər işlədikləri yerdə insan hüquqları ilə bağlı məsələləri anlamalı, bu mövzuya dair CMS öhdəlik, standart və siyasətlərinə əməl etməlidirlər.

SİZİN MƏSULİYYƏTİNİZ

Siz işlədiyiniz yerdə insan hüquqları ilə bağlı məsələləri başa düşməli və CMS öhdəlik, standart və siyasətlərinə əməl etməlisiniz.

BU FƏSİLDƏ VERİLƏNLƏR

- Rüşvətxorluq və Korrupsiya
- Dövlət rəsmiləri ilə iş
- Hədiyyələr və Qonaqpərvərlik (H və Q)
- Maraqlar Toqquşması (MP)
- İnsayder Sövdələşməsi
- Çirkli Pulların Yuyulması
- Siyasi Fəaliyyət və Ödənişlər

## KORRUPSİYA ƏMƏLLƏRİ İLƏ MÜBARİZƏ

CMS rüşvətxorluq, insayder sövdələşməsi, bazar möhtəkirliyi, fırıldaqçılıq və ya çirkli pulların yuyulmasına dözümsüz yanaşır. Asanlaşdırıcı ödənişlər rüşvət hesab edilir və bu cür ödənişlər edilməməlidir. Siz həmçinin hər hansı real və potensial maraqlar toqquşmasına yol verməməli (və ya toqquşma görüntüsü yaratmamalı) və heç zaman icazəsiz hədiyyə və ya qonaqlığı təklif etməməli, yaxud qəbul etməməlisiniz.

Unutmayın, hətta əsassız korrupsiya iddiaları reputasiya və biznesə zərər vura bilər.

# 4. Korrupsiya Əməlləri ilə Mübarizə

### 1.0 RÜŞVƏTXORLUQ VƏ KORRUPSİYA

Rüşvətxorluq siz biznes nəticəsinə yolverilməz şəkildə təsir etmək məqsədilə ödəniş, hədiyyə və ya hörmət təklif etdikdə, aldıqda, istədikdə və ya qəbul etdikdə baş verir. Rüşvətxorluq və korrupsiya, istər dövlət rəsmiləri, istər kommersiya qurumalı və ya istərsə də müştərək müəssisələri daxil edərsə, agentlər və müştərək müəssisə tərəfdaşları qismində üçüncü tərəflər vasitəsilə birbaşa və ya dolayısı ilə mümkündür.   Bəzi ölkələrdə asanlaşdırıcı ödənişlər qanunla yol verilsə belə, buraya asanlaşdırıcı ödənişlər də daxildir. Rüşvətxorluq və korrupsiyaya hətta göz yumulması belə, CMS və şəxsən sizin üçün məsuliyyətlə nəticələnir.

SİZİN MƏSULİYYƏTİNİZ



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

Siz əlverişli münasibət müqabilində və ya biznesdə hər hansı üstünlüyü əldə etmək məqsədilə ödəniş, hədiyyə və ya hörmət təklif etməməli, ödəməməli, istəməməli və ya qəbul etməməlisiniz. Siz bizim fəaliyyət göstərdiyimiz ölkələrin hər ikisində bizə tətbiq edilən rüşvətxorluq və korrupsiya ilə mübarizə haqda qanunlara və həmçinin həmin qanunların tətbiq edildiyi ölkədən (məsələn, BK və Azərbaycan) kənarda tətbiq edilən qanunlara əməl etməlisiniz. Əgər rüşvətxorluq və korrupsiya əməllərinə cəlb olsanız, sizə qarşı nizam-intizam tədbiri, işdən azadolma, hüquqi proseduralar və ola bilsin, həbs qəti-imkan tədbiri görülə bilər.

PRİNSİPLƏR

- Biznes nəticəsinə təsir etmək və ya biznesdə hər hansı üstünlük əldə etmək məqsədilə əlverişli münasibət müqabilində heç zaman şəxsi ödəniş, hədiyyə və ya hörmət təklif etmək, ödəmək, istəmək və ya qəbul etmək olmaz
- Birgə işlədiyiniz insanların rüşvətxorluq və korrupsiya əməllərinin yolverilməz olduğunu başa düşdüklərindən əmin olun.
- CMS və ya CMS-in biznes tərəfdaşı olan hər hansı qurumda (şirkət və ya fərd) korrupsiya əməllərindən şübhələriniz olarsa və ya dəqiq bilərsinizsə, bu barədə CMS-i məlumatlandırın.

ÖZÜNÜ YOXLAMAQ

- Biznes qərarına təsir etmək məqsədilə pul, hədiyyə və ya hörmət təklif etmisinizmi, vermisinizmi və ya qəbul etmisinizmi?
- İctimaiyyət sizin nələri etmiş olduğunuzu bilərsə, bundan narahat olarsınızmı?
- Qanunsuz ödəniş kimi nəzərdən keçirilə bilən ödəniş vermək niyyətində olmusunuzmu və ya vermisinizmi?

## 2.0 DÖVLƏT RƏSMİLƏRİ İLƏ SÖVDƏLƏŞMƏ

Dövlət rəsmiləri üçün səfərlə bağlı xərclər də daxil olmaqla, hədiyyə və qonaqlığın (H və Q) təklif edilməsi xüsusi narahatlıq doğuran məsələlərdəndir. Aşağıda verilmiş prinsiplərə CMS korrupsiya ilə mübarizə siyasəti tətbiq edilir. Bəzi ölkələrdə onların rəsmilərinin qəbul edə biləcəkləri hədiyyə və əyləncənin dəyər və xarakterinə çox ciddi məhdudiyyətlər qoyulur. Özəl biznes tərəfdaşları arasında məqbul ola biləcək H və Q biznes və dövlət rəsmisi arasında məqbul olmaya bilər. Bundan əlavə, əgər siz CMS adından dövlət rəsmiləri ilə işləyən üçüncü şəxslərə münasibətdə lazımi hüquqi araşdırma apara bilməsəniz və ya belə hüquqi araşdırma nəticələrinə laqeyd yanaşsanız, üçüncü tərəfin davranışı həm siz və həm də CMS üçün məsuliyyətlə nəticələnir.

PRİNSİPLƏR

- Dövlət rəsmilərinə H və Q təklif etmək üçün siz CMS Direktorundan icazə almalısınız.
- H və Q dəyəri müvafiq ödəniş növü və ölkə üçün nəzərdə tutulmuş həddi aşmamalıdır. Azərbaycanda nəzərdə tutulmuş hədd 55 AZN-dir.
- Siz H və Q-ni dövlət rəsmisinin həyat yoldaşı, ailə üzvü və ya ziyarətçilərinə təklif etməməlisiniz. .

- Siz hər hansı dövlət rəsmisinin qeyri-biznes səfər və qonaqlığı üçün ödəniş etməməlisiniz.
- Siz dövlət rəsmiləri üçün H və Q ilə bağlı tətbiq edilən bütün qanunlar və CMS-nin daxili proseduralarına əməl etməlisiniz.

## 3.0 HƏDİYYƏLƏR VƏ QONAQPƏRVƏRLİK (H VƏ Q)

H və Q heç zaman sizin biznesə dair qərarlarınıza təsir etməməli, siz və ya CMS üçün heç bir öhdəlik yaratmamalıdır.

### SİZİN MƏSULİYYƏTİNİZ

Siz H və Q-nin sizin biznesə dair qərarlarınıza təsir etməsinə imkan verməməli və ya başqalarının təsirə məruz qaldıqlarını düşünməsinə səbəb olmamalısınız. Əgər siz təsirə məruz qalsanız və ya kiməsə təsir etməyə cəhd etsəniz, siz ya hüquqi, ya nizam-intizam tədbiri ilə üzləşə və ya işdən azad edilə bilərsiniz.

### PRİNSİPLƏR

- CMS işçilərini biznes tərəfdaşlarından H və Q almaqdan çəkindirir.
- Əgər öz rəhbər və ya supervayzeriniz, həmkarlarınız, ailəniz, dostlarınız və ya ictimaiyyətə bunu söyləməkdən özünüzü narahat hiss edərsinizsə, H və Q-ni rədd edin
- Nə siz və nə də sizin ailə üzvləriniz heç zaman CMS biznesi ilə aşağıdakı təklif etməyin, verməyin, istəməyin və ya qəbul etməyin:

  -qanunsuz və ya qeyri-düzgün H və Q;  
  -pul və ya pul ekvivalentləri;  
  -şəxsi xidmətlər;  
  -kreditlər;  
  -biznes tərəfdaşının olmadığı zaman tədbir və ya naharlar; və ya  
  -vacib biznes qərarları verildiyi müddətlərdə H və Q.

  - Tabe olduğunuz rəhbərin təsdiqi alınmazsa, heç zaman dəyəri nəzərdə tutulmuş hədləri aşan H və Q təklif etməyin, verməyin, istəməyin və ya qəbul etməyin.
  - Aşağıda verilənlər qeyd edilməlidir:

-dövlət rəsmilərinə verilmiş və bir fincan kofe ilə eyni nominal dəyərdə olması gözlənilən bütün H və Q-lar;

-maraqlar toqquşması yaratdığı düşünülə bilən istənilən H və Q;

-üçüncü tərəflərə verilən və ya alınan, dəyəri yol verilən dəyər hədlərini aşan bütün H və Q-lar; və

-dəyəri yol verilən dəyər hədlərini aşan bütün rədd edilmiş H və Q-lar.

- Öz biznes tərəfdaşlarınıza məlum olan H və Q barədə CMS siyasəti formulə edin.
- Öz rəhbərinizlə korporativ qonaqlıq və ya sponsorluğu müzakirə edin.
- Qanun-qaydalara əməl edin.
- Əgər CMS siyasətləri ilə ziddiyyət təşkil edərsə, yerli ənənələrə əməl edilə bilməyəcəyini anlayın.

ÖZÜNÜ YOXLAMAQ

- H və Q-nin qəbulunun sizin üzərinizdə məsuliyyət yaratdığını hiss etmisinizmi?
- hədiyyə hər hansı sövdələşməyə görə müstəsna mükafat və ya stimul kimi verilibmi?
- H və Q qeyri-düzgün və ya qanunsuzdurmu?
- H və Q vaxtı çox dəqiqdirmi (məs, danışıqlar zamanı)?

## 4.0 İCMALARLA İŞ BİRLİYİ VƏ ONLARIN HÜQUQ VƏ LƏYAQƏTİNƏ HÖRMƏT

Biz Caspian Marine Services Ltd şirkətində biznesimizi həyata keçirdiyimiz ölkələrdə müsbət dəyişikliyə nail olmaq istəyirik. Caspian Marine Services Ltd şirkətində biz ən yüksək etik standartlara əməl edirik və əməliyyat apardığımız icmaların etibarını qazanacaq şəkildə davranırıq. Şirkətdə biz həmçinin yerli icmalar, habelə bizim şirkət olaraq qanuni maraqlarımızın olduğu qeyri-hökumət təşkilatları (QHTlər) timsalında müvafiq orqanlarla açıq və səmimi münasibətlər yaratmaq üçün səylə çalışırıq. Biz qarşılıqlı münasibətlərdə olduğumuz icma, QHT və digər təşkilatların hüquq və ləyaqətinə hörmət edirik.

PRİNSİPLƏR

- işlədiyiniz yerdə yerli qanun-qaydalara əməl edin.
- Bu Kod və hüquqi tələblərlə ziddiyyət təşkil etmədikləri həddə yerli mədəniyyət və biznes ənənələrinə uyğun işləyin.
- İcma üzvlərinin ləyaqətli münasibət bəsləyin və onların hüquqlarına hörmət edin. Xüsusi vəziyyətlərə və yerli xalqın hisslərinə həssaslıqla yanaşın.
- Praktiki cəhətdən mümkün olduğu hallarda ixtisaslı yerli personal cəlb edin
- QHT-lərlə müzakirələr və ya təmasa başlamazdan əvvəl öz rəhbəriniz, yerli İcmalar və Kənar Məsələlərlə məşğul olan komandanı bu barədə məlumatlandırın.

Caspian Marine Services Ltd şirkəti icma və ya ölkədə qarşılıqlı üstünlük qazandıracaq yerli icma inkişafı təşəbbüsləri və vətəndaş hüquqlarının qorunmasına ruhlandırır. Müvafiq hallarda biz onlarda işçilərin iştirakını dəstəkləyirik. Əgər siz hər hansı yolla buna cəlb olunarsınızsa, hər hansı real və ya güman edilən maraqlar toqquşmasına yol verməyin. Əlavə məlumatlar üçün bax: bu Kodun "Maraqlar Toqquşması" adlı bəndi.

## 5.0 MARAQLAR TOQQUŞMASI (MT)

Sizin şəxsi münasibətləriniz, kənar fəaliyyətlərdə iştirakınız və ya digər müştərək müəssisədə marağınız qərarlarınıza təsir edəndə və ya təsir etməsi güman ediləndə MT ilə üzləşirsiniz.

SİZİN MƏSULİYYƏTİNİZ

Siz MT-yə yol verməməlisiniz. Sizin CMS qərarlarınıza hər hansı şəxsi və özəl məsələlər təsir etməməlidir. MT sizin qərar çıxarma qabiliyyətinizə təsir edə və ya təsir etməsi güman edilə bilər. Bu siz və CMS reputasiyasına mənfi təsir göstərir. Bu Kod və ya hər hansı qanun-qaydaların tələblərinə əməl edə bilməmək işdən azad olma da daxil olmaqla, nizam-intizam tədbirinin görülməsi ilə nəticələnir.

PRİNSİPLƏR



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

- Öz tabe olduğunuz rəhbər və ya supervayzerinizi CMS-də sizin qərar və ya hərəkətlərinə təsir edən, yaxud da təsir etməsi güman edilən hər hansı məsələ barədə məlumatlandırın.
- Əgər faktiki və ya potensial MT olduğuna inanırsınızsa, tabe olduğunuz rəhbərə bütün aidiyyəti faktları yazılı şəkildə təqdim edin
- MT yaradan və ya yaratması güman edilən qərarlar verməyin.
- Podratçı və təchizatçılarla işlərinizdə qərəzsiz, peşəkar və rəqabətli olun.
- Kənar material gəlir əldə etmək üçün öz bilik və ya vəzifənizdən istifadə etməyi planlaşdıranda CMS-ni bu barədə məlumatlandırın
- Əgər müvafiq qanun-qayda və CMS siyasətinə əməl edirsinizsə, icma, dövlət, təhsil və digər qeyri-mənfəət təşkilatlarının işində münasib bildiyiniz vaxtda fəallıq nümayiş etdirə bilərsiniz.
- Əgər bu heç bir faktiki və ya potensial MT ilə nəticələnməzsə, münasib bildiyiniz vaxtda digər biznesdə maraqlar əldə edə və kənar peşəkar fəaliyyətləri həyata keçirə bilərsiniz. Əgər buna dair hər hansı şübhələriniz olarsa, öz tabe olduğunuz rəhbər və ya supervayzerinizlə məsləhətləşin.



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

ÖZÜNÜ YOXLAMAQ

- Siz qohum və ya dostunuzu işə qəbul edirsinizmi, idarə edirsinizmi, bunun üçün nəzərdən keçirir və ya qiymətləndirirsinizmi?
- Siz öz vəzifənizdən şəxsi mənfəət üçün istifadə edirsinizmi?
- Siz məxfi məlumatları şəxsən əldə etmisinizmi?
- Sizin şəxsi münasibətləriniz biznes qərarlarınıza təsir edirmi?

## 6.0 İNSAYDER SÖVDƏLƏŞMƏSİ

Material qeyri-ictimai məlumata malik olduqda və ya bu cür məlumatı həmin səhm, yaxud da digər qiymətli kağızlarla sövdələşmə aparan şəxslə paylaşdıqda siz belə səhm və digər qiymətli kağızlarla ticarət zamanı insayder sövdələşməsində iştirak edirsiniz.

SİZİN MƏSULİYYƏTİNİZ

Siz məxfi biznes məlumatlarını qorumalı, xüsusən də səhm və ya digər qiymətli kağızlarla ticarət zamanı öz şəxsi mənfəətiniz üçün istifadə etməməli və ya başqa birisinin bunu etməsini tövsiyə etməməlisiniz. Siz şayiə yaymamalı,  yanlış məlumatlarla çaşdırmamalı və ya qiymətləri manipulyasiya etməməlisiniz. İnsayder sövdələşməsi və bazar möhtəkirliyi qanunsuz fəaliyyətlər olub cərimə, işdən azadetmə və ya həbs qəti-imkan tədbiri ilə nəticələnə bilir.

PRİNSİPLƏR

- İnsayder sövdələşməsi və bazar möhtəkirliyi haqda qanunlara əməl edin.
- Bazar qiymətlərini manipulyasiya etməyin.
- Bazarda şayiələr və ya yanlış məlumatlar yaymayın.
- Əgər hər hansı həmkarınızın insayder sövdələşməsi və ya bazar manipulyasiyasına cəlb olunduğuna inansanız, bu barədə CMS-i məlumatlandırın.

ÖZÜNÜ YOXLAMAQ

- Sizdə insayder məlumatı varmı?
- Siz və ya sizin bilavasitə ailəniz CMS maraqlarını daxil edən bazar sövdələşmələri planlaşdırırmı?
- Siz məxfi məlumatları paylaşmısınızmı?
- Siz bazarda şayiələr yaymısınızmı və ya bazarı çaşdırmağa çalışmısınızmı?

## 7.0 ÇİRKLİ PULLARIN YUYULMASI

Çirkli pulların yuyulması pul və ya aktivlərin cinayət mənşəyi, yaxud xarakteri qanuni biznes sövdələşmələri zamanı gizlədiləndə, yaxud da qanuni vəsaitlər terrorçuluğun maliyyələşdirilməsi də daxil olmaqla, cinayət fəaliyyətlərini dəstəkləmək məqsədilə istifadə

edəndə baş verir. Çirkli pulların yuyulması ilə mübarizə haqda qanunun şamil edildiyi pozuntulara aşağıdakılar aiddir: təhqiqata zərər vurma və ya əngəlləmə və şübhəli fəaliyyəti bildirməmə.

SİZİN MƏSULİYYƏTİNİZ

Cinayətkarlar CMS-i çirkli pulların yuyulması və ya cinayət fəaliyyətlərinin maliyyələşdirilməsi üçün istifadə edə bilər. Biznesi, bizim perspektiv biznesin ilkin əsasını anlamaq, pul və əmlakın mənşə və təyinatını müəyyən etmək məqsədilə, siz müvafiq tərəf müqabili ilə bağlı hüquqi araşdırma həyata keçirməlisiniz. Şübhəli sövdələşmələri və çirkli pulların yuyulması hallarını şirkətə bildirməlisiniz. Bu hərəkətlərin edilməməsi cərimə, işdən azadolma və ya həbs qəti-imkan tədbiri ilə nəticələnə bilir.

PRİNSİPLƏR

- Şübhəli cinayətkarlar və ya cinayətdən əldə edilən gəlirlərlə heç zaman məşğul olmayın.
- Hər hansı şübhəli sövdələşmə və ya fərdləri CMS-ə bildirin (CMS öz növbəsində, bu məsələni səlahiyyətli orqanlara məruzə edəcək.)
- Pul gəlirləri və ya cinayətkar əməllər nəticəsində əldə edilmiş gəlirlərə alınmış əmlakdır əldə etməyin, istifadə etməyin və ya saxlamayın.
- Cinayət yolu ilə əldə edilmiş əmlakın mənşə və ya məzmununu gizlətməyin.
- Cinayət yolu ilə əldə edilmiş əmlakın əldə edilməsi, sahiblik və ya nəzarətinə şərait yaratmayın.
- Barəsində təhqiqat aparılacaq şəxsə məxfi məlumat verməyin.
- Aidiyyəti məlumatları saxtalaşdırmayın, gizləməyin, məhv etməyin və ya atmayın.

ÖZÜNÜ YOXLAMAQ

- Sövdələşmənin təfərrüatlarını yoxlaya bilərsinizmi?
- Hər hansı şəxs gözlənilən bazar şərtlərindən kənar kommersiya şərtlərini təklif edirmi?
- Hesablaşma metodları qeyri-adidirmi və ya bir-birilə əlaqəli olmayan tərəflər cəlb olunubmu?
- Bütün hüquqi araşdırma yoxlamaları qaydasındadırmı?

## 8.0 SİYASİ FƏALİYYƏT

Bizneslərimizi həyata keçirdiyimiz hər yerdə bizim korporativ siyasi fəaliyyətə yanaşmamız aydın və güzəştsizdir:

- CMS birbaşa hər hansı partiyanın siyasi fəaliyyətində iştirak etmir.
- CMS istər pul və ya istərsə də natura şəklində siyasi ödənişlər etmir.



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

Biz işçilərimizin hər ölkəyə uyğun şəkildə siyasi prosesdə fərdlər kimi iştirak hüququnun olduğunu təsdiq edirik. Bunu edən işçilər CMS-i təmsil etmədiklərini aydın bildirməlidirlər. Biz partiya siyasətində birbaşa iştirak etməsək də, lobbiçilik də daxil olmaqla, bizim müxtəlif yollarla işlədiyimiz şirkət, heyət və icmaların qanuni maraqları ilə bağlı mövzular üzrə siyasi müzakirələrdə iştirak edirik. CMS maraqları adından həyata keçirilən lobbiçilik fəaliyyəti yüksək səviyyədə tənzimlənir və yalnız səlahiyyətli şəxs tərəfindən aparılmalıdır.

PRİNSİPLƏR

• öz fərdi siyasi rəy və hərəkətlərinizin CMS deyil, özünüzə məxsus olduğunu dəqiqləşdirin.

• Əgər öz siyasi fəaliyyətiniz və ya yaxın qohumumuzun fəaliyyətləri maraqlar toqquşması, yaxud da qanunsuz əməl görüntüsü yaradarsa, bu barədə tabe olduğunuz rəhbəri məlumatlandırın.

• Əgər siz dövlət vəzifəsini əldə etmək və ya qəbul etməyi planlaşdırırsınızsa, bu barədə tabe olduğunuz rəhbərliyi məlumatlandırın. Hər hansı rəsmi vəzifələrin sizin müştəri və təchizatçılarla işinizə nə cür təsir edəcəyini müzakirə edin, bunun işinizə mənfi təsirini minimallaşdırmaq üçün öz rəhbərinizlə birgə yaradıcı əməkdaşlıq edin.

• Özünüz və ya müştəri, yaxud təchizatçıların maraqlarını təmsil edən digər şəxslərlə hər hansı qeyri-müntəzəm təmaslardan əvvəl tabe olduğunuz rəhbərinizlə məsləhətləşin. Buraya dövlət siyasəti və ya hüquqi/normativ dəyişiklikləri ilə bağlı təmaslar daxildir. Bu tələb standart tenderin verilməsi prosesləri və dövlət qeydiyyatında olan proseduralar timsalında adi dövlət proseslərinin tələb etdiyi təmaslara şamil edilmir

Heç zaman

• şirkətin vaxt, əmlak və ya avadanlığını öz şəxsi siyasi fəaliyyətlərinizi həyata keçirmək və ya dəstəkləmək üçün istifadə etməyin. Siyasi prosesdə yalnız özünüz üçün münasib vaxtda və öz resurslarınızla iştirak etdiyinizdən əmin olun.

• Lobbiçilik fəaliyyətlərini icazə olmadan həyata keçirməyin.

İanələrə İcazə verilmirmi?

Bəli, ianələrə icazə verilir, məktəb və ya yerli hökumət orqanlarına natura şəklində ödənişlər sizin icma ilə qarşılıqlı münasibətlərində vacib rol oynayır və bu Kodla icazə verilir. Onlara yerli qaydalar tətbiq edildiyinə görə, bunlarla həmişə sizin yerli Rabitə əlaqələri və Kənar Məsələlərlə məşğul olan komanda məşğul olmalıdır. İanələr həmişə məktəb və ya dövlət orqanında işləyən hər hansı fərdə deyil, onların özünə ödənilməlidir.

BU FƏSİLDƏ VERİLƏNLƏR

- Antitrast (Rəqabət) Qanunu
- İxracata Nəzarət və Sanksiyalar
- İdxalata Nəzarət və Sanksiyalar

# YERLİ VƏ BEYNƏLXALQ

# TİCARƏT

CMS azad, ədalətli və etik şirkət olmağa sadiqdir. Siz tətbiq edilən bütün ticarət qanunlarına əməl etməli və CMS-in əsas dəyərlərinin bütün sövdələşmələrinizə tətbiq edildiyindən əmin olmalısınız.  Bu qanun-qaydalara riayət etməmək bizim biznesimizə ciddi təsir edə və cinayət məsuliyyətinə məruz qoya bilər. Siz isə, işdən azad olma, cərimə və həbs qəti-imkan tədbiri ilə üzləşə bilərsiniz.

## 5. Milli və Beynəlxalq Ticarət

### 1.0 ANTİTRAST (RƏQABƏT) QANUNU

Antitrast qanunu sərbəst təşkilatlanmanı qoruyur, ticarəti və ya haqlı rəqabəti məhdudlaşdıran davranışı qadağan edir. Bu qanun hər bir biznes səviyyəsində tətbiq edilir. Bu qanunlar qiymət sövdələşməsi, bazar paylaşması və ya ədalətsiz tender təklifi sövdələşmələri və ya inhisarçılıqğa nail olmaq, yaxud da saxlamaq şəklində qanunsuz əməllərlə mübarizə aparır. CMS antitrast qanunlarının pozuntusuna dözümsüz yanaşır.

SİZİN MƏSULİYYƏTİNİZ

Siz CMS rəqiblərinin qiymət və ya qiymətin hər hansı elementlərini (məsələn, endirim, endirim və əlavə haqları) sövdələşdirməsi ilə razılaşmamalısınız. Siz xüsusi bazarlar və ya xüsusi müştəri, yaxud da hesablar üzrə rəqabət aparmamağa dair başqalarının dedikləri ilə razılaşmamalısınız. Siz ticarət və ya tenderlərin qiymətlərini razılaşdırmamalı və beynəlxalq miqyasda tətbiq edilmiş sanksiyalarla bağlı hallardan başqa hər hansı müştəri və ya təchizatçıların boykot edilməsinə razılıq verməməlisiniz. İstehsal, istehsal qabiliyyəti və ya hasilatın azaldılması, yaxud da stabilləşdirilməsinə dair rəqiblərlə razılaşmalar əldə edilməsi qadağandır. Bundan əlavə, siz məhsulun minimal təkrar satış qiymətini təyin etmək üçün müstəqil diler və ya təkrar satıcılarla razılaşma əldə etməməlisiniz. Rəqabət əleyhinə davranış CMS biznes və reputasiyasının ədalətlilik və açıqlıq prinsipinə zərər vurur. Haqlı rəqabət əleyhinə əməllər yolverilməzdir. Bunlar əksər ölkələrdə qanunsuz olub, ağır cərimə və həbslə nəticələnə bilir.



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

PRİNSİPLƏR

- Hətta qeyri-rəsmi qaydada, qanuni əsaslar olmadan, rəqiblərlə qiymət qoyma, istehsal, müştəri və ya bazarlara dair razılıq əldə etməyin. Hər hansı təcrübənin qanuni olub-olmamasına dair həmişə qanuni məsləhət alın.
- CMS qiymət qoyması, istehsalı, müştəri və bazarlarına dair qərarlar yalnız CMS tərəfindən qəbul edilməlidir
- rəqiblərlə aşağıda verilənləri müzakirə etməyin:

-CMS məşğul olduğu və məşğul olacağı təchizatçı, müştəri və ya podratçılar; və ya

-CMS-in satmaq niyyətində olduğu bazar və sövdələşmə aparacağı şərtlər.

- Rəqabət baxımdan həssas məsələlər ortaya çıxarsa, sənaye toplantılarını tərk edin və toplantını tərk etdiyinizin hiss edildiyindən əmin olun. Bu məsələni CMS Hüquqi İşlər üzrə Rəhbərinə bildirin. .
- Əgər siz hər hansı potensial rəqabət əleyhinə təcrübələr barədə öyrənsəniz və ya belə təcrübələrin qanuni və ya qanunsuz olduğundan əmin olmasanız, CMS-ə bu barədə məlumat verin.

ÖZÜNÜ YOXLAMAQ

- Rəqabət üçün həssas məlumat sənaye toplantısında müzakirə edildimi (birbaşa və ya dolayısı ilə)?
- Öz diler və ya distribütorlarımızın təkrar satış qiymətini təyin etməyə səy göstərmişəmmi?
- Sizin təchizatçı və ya müştəriləriniz hər hansı rəqabət əleyhinə davranışa cəlb olunubmu?
- Tabeliyimdə olan şəxslərin nə etdiklərini bilirəmmi?
- Lazımi hüquqi məsləhəti əldə etmişəmmi?

## 2.0 İXRACATA NƏZARƏT VƏ SANKSİYALAR

İxracata Nəzarət və Sanksiyalar haqda qanunlar ölkələrə məlumat, proqram təminatı, mal və xidmətlərin ölkələrarası satışı, göndərişi, elektron ötürülüşü və ya açıqlanmasına hüquqi nəzarət imkanı verir. İxracat yalnız ənənəvi göndəriş metodları deyil, müzakirələr və ya əyani yoxlamalar vasitəsilə elektron ötürülüşləri daxil edir.

SİZİN MƏSULİYYƏTİNİZ

Dövlətlərarası mal, texnologiya, proqram təminatı və ya xidmətləri göndərməzdən əvvəl ixracata nəzarət qanun və sanksiyalarının potensial təsiri barədə hərtərəfli düşünün. Unutmaq olmaz ki, nəzarət və sanksiyalar (və ya embarqo) ölkə, təşkilat, fərd və mallara tətbiq edilə bilir.



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

Siz bu nəzarət və ya sanksiyalardan hansının sizin biznes aparma tərzinizə məhdudiyyət və ya qadağaların qoyulması ilə nəticələnəcəyini bilməlisiniz. Əgər siz müvafiq nəzarət və sanksiyalara əməl etməsəniz, CMS cinayət təhqiqatı, cərimə və ixracat sahəsində imtiyazlarının itkisi ilə üzləşə bilər. Siz isə, işdən azadolma, cərimə və həbs tədbiri ilə üzləşə bilərsiniz.

## 3.0 İDXALATA NƏZARƏT VƏ SANKSİYALAR

İdxalata Nəzarət və Sanksiyalar haqda qanun ölkələrə onların yurisdiksiyasında olan məlumat, proqram təminatı, mal və xidmətlərin satınalınması, göndərişi, elektron qaydada ötürülməsi və ya açıqlanması üzərində hüquqi nəzarət imkanı verir. İdxalata nəzarət vasitələr şirkət kimi CMS-ə və həmçinin şəxsən sizə tətbiq edilir.

SİZİN MƏSULİYYƏTİNİZ

Mal və ya xidmətləri ölkəyə idxal edəndə, vergi və rüsumları ödədiyinizi təmin edərək idxal tələblərinə əməl etməlisiniz. Məhdudiyyət qoyulmuş malları ölkəyə bəyan etmədən gətirmək olmaz. Əgər idxalata dair hər hansı şübhələriniz olarsa, buna dair hüquqi məsləhət almağınız xahiş olunur. Siz qadağan edilmiş malları idxal etməməlisiniz. İdxalata nəzarət qanun və sanksiyalarına əməl edilməməsi əməliyyatda gecikmələrə səbəb olur və biznesə zərər vurur. Bunun nəticəsində CMS cərimələr və imtiyazların itkisi də daxil olmaqla, hüquqi tədbirlər, siz isə, işdən azadolma, cərimə və həbslə üzləşə bilərsiniz.

PRİNSİPLƏR

(İXRACAT VƏ İDXALATA NƏZARƏT VƏ SANKSİYALAR ÜÇÜN)

- Mal, texnologiya, proqram təminatı və ya xidmətləri ölkələr arasında ixrac və ya idxal etməzdən əvvəl lazımi icazənizin olduğundan əmin olun.
- öz müştəri və təchizatçılarınızı, onlara təchiz edəcəyiniz mal, texnologiya, proqram təminatı və ya xidmətlərdən nə cür istifadə edəcəyinizdən xəbərdar olun.
- Əgər sanksiyalar tətbiq edilərsə, ölkə və ya fərdlə hər hansı biznes əməliyyatı aparmazdan əvvəl hüquqi məsləhət alın.
- Sanksiyaların tətbiq edildiyi ölkədən həmin sanksiyaları tətbiq etmiş ölkəyə idxal etmək olmaz.
- Dəyişən qaydalara daim əməl edin.
- Əgər ixracat və idxalata nəzarət və sanksiyalardan hər hansı şübhələriniz olarsa, hüquqi məsləhət əldə edin.

ÖZÜNÜ YOXLAMAQ

(İXRACAT VƏ İDXALATA NƏZARƏT VƏ SANKSİYALAR ÜÇÜN)

- Tətbiq edilən ixracat və idxalata nəzarət tədbirlərini bilirsinizmi?
- Hansı ölkə, təşkilat, fərd və malların sanksiyaları tətbiq etdiklərini bilirsinizmi?
- Müvafiq vergi və rüsumlar ödənilibmi?
- Siz tələb edilən bütün icazələri əldə etmisinizmi?
- Məhdudlaşdırılmış və ya qadağan edilmiş malları idxal və ya ixrac etmisinizmi?

# MƏLUMAT VƏ AKTİVLƏRİN MÜHAFİZƏSİ

Əqli, fiziki və maliyyə korporativ aktivləri dəyərli olduqlarına görə məqsədəuyğun şəkildə mühafizə edilməli, qorunmalı və idarə edilməlidir. Şəxsi Məlumatlar və Əqli Mülkiyyət (ƏM) mühafizə edilməlidir. İnformasiya Texnologiyaları (İT) və bildiriş vasitələrindən məsuliyyətli şəkildə istifadə edilməlidir. Qeydlər dəqiq olmalı və müvafiq qaydada saxlanılmalıdır. CMS aktivlərinin fırıldaqçılıq, oğurluq, sui-istifadə və ya qeyri-düzgün istifadə halları yolverilməzdir.

## 6. Məlumat və Aktivlərin Mühafizəsi

### 1.0 AKTİVLƏRİN QORUNMASI

Korporativ aktivlər maliyyə, fiziki və ya qeyri-maddi olub, bina, avadanlıq, vəsait, proqram təminatı, nou-xau, verilənlər, patent və digər ƏM daxil edir.

SİZİN MƏSULİYYƏTİNİZ

Siz CMS aktivlərini korlanma, itki, zərər, qeyri-düzgün istifadə, oğurluq, mənimsəmə və ya pozuntudan qorumalısınız. CMS aktivlərini düzgün və məsuliyyətlə istifadə edin və başqalarının maddi və qeyri-maddi aktivlərinə hörmətlə yanaşın. Bu kod və ya hər hansı digər qanun-qaydaların tələblərinə riayət edə bilməmək məşğulluğa xitam vermə də daxil olmaqla, nizam-intizam tədbirinin görülməsi ilə nəticələnə bilir.

### 1.1 ƏQLİ MÜLKİYYƏT

ƏM aktiv və hüquqları, o cümlədən CMS əməliyyat və ya texnologiyaları ilə bağlı patent, əmtəə nişanları, nou-xau və ticarət sirləri CMS-in ən çox dəyər verdiyi aktivlər sırasındadır. ƏM biznes məqsədlərinə nail olmaq üçün mühüm strateji alətdir və lazımi qulluq göstərilməklə idarə olunmalıdır.

SİZİN MƏSULİYYƏTİNİZ

Siz CMS-in əqli mülkiyyət standartlarına əməl etməlisiniz.

PRİNSİPLƏR

- Hər biznes və biznesin alt qurumu müvafiq ƏM strategiyalarına malik olmalıdır.
- Üçüncü tərəfin ƏM hüquqları bilərəkdən pozulmamalıdır.
- Hüquq Şöbəsi (Hüquqşünas məsləhətçi) əməliyyatlar və ƏM ilə bağlı razılaşmalar üçün vaxtında məsləhət alınmalıdır. Bu lazımi səlahiyyətlə edilməli və razılaşdırıldığı kimi həyata keçirilməlidir.
- ƏM mübahisələri və əlaqəli bildirişlərlə hüquqşünas mütəxəssislər məşğul olmalıdırlar.

### 1.2 ŞƏXSİ İSTİFADƏ

İT və rabitə əlaqə qurğuları şəxsi kompüterlər, mobil və masaüstü iş telefonları və şəxsi rəqəmsal köməkçiləri daxil edir. Şəxsi istifadə məqsədləri üçün CMS İT və rabitə əlaqə qurğularından məhdud istifadə hal-hazırda ümumən məqbul olsa da, bir daha yoxlanıla bilər. Sizin şəxsi istifadəniz də daxil olmaqla, CMS-in İT və rabitə əlaqə qurğularından istifadə qeyd edilir və izlənilir.

SİZİN MƏSULİYYƏTİNİZ

Siz yüksək etik standartları tətbiq etməli, tətbiq edilən qanun-qaydalara əməl etməli və CMS İT və rabitə əlaqə qurğularından istifadə edərkən CMS təhlükəsizlik tələblərinə cavab verdiyinizdən əmin olmalısınız. Sizin CMS İT və rabitə əlaqə qurğularından şəxsi istifadə nominal xərcdən çox olmamalı və ya məhsuldarlığa mənfi təsir göstərməməlidir. Belə qurğulardan qeyri-düzgün istifadə qanunsuz ola və CMS-ə zərər yetirə bilər. CMS qanunsuz istifadə hadisəsini aidiyyəti orqanlara bildirə bilər.

PRİNSİPLƏR

- CMS İT və rabitə əlaqə vasitələrindən şəxsi istifadənin təsadüfi və qısa-müddətli olduğunu təmin edin.
- CMS şəbəkəsi və ya həmin şəbəkədəki verilənləri saxlama məkanından əyləncə məqsədləri və ya şəxsi verilənlərinizi saxlamaq üçün istifadə etməyin.
- Əgər başqaları onlardan istifadə edərsə, məsuliyyət daşıdığınız İT və rabitə əlaqə vasitələrinə nəzarəti özünüzdə saxlayın.
- Pornoqrafiya və ya digər ədəbsiz, yaxud şübhəli materialı, qanunsuz və ya iş həmkarlarınızın hüququnu pozan, onları narahat və ya məyus edən materialı yükləməyin, götürməyin, göndərməyin və ya baxmayın.
- Öz biznes bildirişlərinizə CMS adı və ya brendini daxil etsəniz də, onları şəxsi emaillərinizdən çıxarın.
- CMS təhlükəsizlik tədbirlərindən istifadə edin.
- Bu Kodda əksini tapmış Rabitə əlaqə tələblərinə riayət etdiyinizdən əmin olun.
- İcazəni proqram təminatını quraşdırmazdan və ya aparaturanı qoşmazdan əvvəl əldə edin.
- CMS İT və ya rabitə əlaqə vasitələrini qanunsuz və ya əxlaqsız fəaliyyət, yaxud məqsədlər (o cümlədən İP hüquqlarının pozuntusu və ya kiber cinayətə yol verilməsi), qumar və ya öz biznes fəaliyyətlərinizi həyata keçirmək üçün istifadə etməyin.

ÖZÜNÜ YOXLAMAQ

- Şəxsi istifadəni izah edə və əsaslandıra bilərsinizmi?
- Şübhəli materialı haçansa yükləmisinizmi, götürmüsünüzmü və ya ötürmüsünüzmü?
- CMS futerini şəxsi emaillərinizdən silmisinizmi?
- Proqram təminatını quraşdırmaq üçün təsdiqi almısınızmı?

## 2.0 MƏLUMAT ÖZƏLLİYİ VƏ QORUNMA (DP)

DP qanunları fərdlər barədə məlumatları mühafizə edir. Belə məlumatlara ad və əlaqə təfərrüatları, məşğulluq və maliyyə məlumatları, yaş və milli mənsubiyyəti daxil edir. İrqi və ya etnik, dini mənsubiyyət və ya fəlsəfi əqidə, sağlamlıq və ya cinsi oriyentasiya, cinayət davranışı və ya həmkarlar ittifaqına üzvlük həssas şəxsi məlumatlardan ibarətdir və ciddi nəzarət altındadır. CMS işçi, müştəri və təchizatçılar da daxil olmaqla, fərdlərin əsas özəllik hüququna hörmətlə yanaşır.

SİZİN MƏSULİYYƏTİNİZ

Siz onların verilənlərini toplayarkən və ya istifadə edərkən, şəxsin özəllik hüququna hörmətlə yanaşmalı tətbiq edilən qanun və CMS-in daxili özəllik qaydalarına hörmət etməlisiniz. Belə verilənləri toplayanda, istifadə edəndə və paylaşanda düzgün prosedurlara əməl etməlisiniz. Şəxsi məlumatların məxfi və təhlükəsiz saxlanıla bilməməsi işdən azadolma və təqiblə nəticələnir. Şəxsi verilənləri daxil edən personal və biznesə aid faylları qoruyun.

PRİNSİPLƏR

- Şəxsi verilənləri toplayarkən, işləyərkən, saxlayarkən, istifadə edərkən və ya paylaşarkən, CMS Davranış KODU və TİS-ə riayət edin.
- Müvafiq fiziki və İT mühafizə vasitələrindən istifadə edin. Əgər təhlükəsizlikdə hər hansı boşluqları bilsəniz və ya şübhələnsəniz, bu barədə CMS-i məlumatlandırın.
- Belə məlumat həqiqətən zəruri olmazsa və sizə qanunla icazə verilməzsə, şəxsi məlumatları toplamaq, işləmək, saxlamaq, istifadə etmək və ya paylaşmaq olmaz. Fərdlərə onların şəxsi məlumatlarını nə üçün topladığınız barədə məlumatlandırın.
- Şəxsi məlumatı istifadə etməzdən və ya paylaşmazdan əvvəl Davranış Kodunun gərək olub-olmadığını yoxlayın.
- Şəxsi məlumatları başqa ölkədə olan bir şəxsə ötürməzdən əvvəl hüquqşünas məsləhətçidən məsləhət alın.
- Şəxsi məlumatların ötürülməsinə dair hüquqi məhdudiyyətlərə riayət edin.
- Şəxsi məlumatları lazım olduğundan çox saxlamayın və sonra onları təhlükəsiz qaydada pozun, məhv edin və ya anonim saxlayın.

## ÖZÜNÜ YOXLAMAQ

- DP qanunları və CMS-in daxili özəllik qaydalarını anlayırsınızmı?
- Bu məlumatı toplamaq, istifadə etmək, saxlamaq və ya paylaşmağa sizə icazə verilibmi?
- Şəxsə bu məlumatı nə üçün topladığınızı söyləmisinizmi?
- Belə məlumatdan istifadə etmək və ya paylaşmaq üçün ondan icazə almışınızmı?

## 3.0 QEYDLƏRİN İDARƏ EDİLMƏSİ

Qeydlər dəyərli şirkət aktivləri olub, düzgün idarə edilməlidir. CMS Qeydləri tez və etibarlı şəkildə çıxara bilməlidir. Qeydin saxlanma müddəti başa çatdıqda onun lazımi şəkildə atılması tələb olunur.

Bu Qeyd biznes fəaliyyətini sübut edən, hüquqi, vergi, tənzimləmə və hesabat məqsədləri üçün tələb edilən və ya CMS biznes, yaxud korporativ yaddaşı üçün vacib olan məlumatı daxil edir. Bu Qeydin formatı deyil, onun özünü müəyyən edən mətndir. Qeydlər müqavilə, məhsul spesifikasiyaları, korporativ siyasət, müddəa və prosedurları, toplantı protokollarını daxil edir.

SİZİN MƏSULİYYƏTİNİZ

Siz hansı məlumatların Qeyd olması, buna görə də düzgün idarə edilməli olması və artıq heç bir dəyər kəsb etməyəndə atılmalı olmasını bilməlisiniz. Qeydlərin effektli idarə edilə bilməməsi mənfi maliyyə, rəqabət, reputasiya, reputasiya və normativ xarakteri nəticələrə yol aça biləcək, hüquqi, mühasibatlıq, vergi və normativ tələblərini pozacaq ciddi biznes risklərinə səbəb olur. Fərdlər öz Qeydlərini TİS-ə və Azərbaycan Respublikasının əlaqəli qanunvericilik aktlarına uyğun idarə etməlidirlər.



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

PRİNSİPLƏR

- Bütün fərdlər öz Qeydlərini sənədlərə nəzarət sahəsində şirkətin daxili qaydaları və qanunvericilik tələblərinə uyğun idarə etməlidirlər.

ÖZÜNÜ YOXLAMAQ

- Siz Qeydlərinizin nədən ibarət olduğunu, onları nə cür təyin etməyi, təsnifatlandırmağı və saxlamağı bilirsinizmi?
- Sizin Qeydləriniz icazəsiz giriş və ya müdaxilədən mühafizə edilirmi?
- Siz bütün məlumatları faktiki və ya gözlənilən məhkəmə çəkişməsi, qanunvericiliyə əsasən təhqiqat və ya vergi auditi məqsədləri üçün saxlamısınızmı?
- Vəzifəni dəyişərkən, müvafiq Qeydlərə sahibliyi yeni şəxsə ötürmüsünüzmü?

BU FƏSİLDƏ VERİLƏNLƏR

- BİZNES BİLDİRİŞLƏRİ
- İCTİMAİYYƏT ÜÇÜN AÇIQLAMA

# 7. RABİTƏ ƏLAQƏLƏRİ

Sizin rabitə əlaqələriniz CMS-də əks olunur. Öz rabitə əlaqələrinizin zəruri və məqsədəuyğun olduğundan əmin olun. Bütün qaydalar və prinsiplərə əməl edin. Məlumatların mühafizə edilə bilməməsi CMS-in reputasiyası və biznesin effektli həyata keçirilməsi qabiliyyətinə zərər vurur.

Qeyri-müvafiq, qeyri-dəqiq və ya diqqətsiz rabitə əlaqəsi CMS-in reputasiyasına zərər vurur, siz və CMS üçün öhdəlik və riayətetmə riskləri törədir.

### 1.0 BİZNESƏ DAİR RABİTƏ ƏLAQƏLƏRİ

CMS-in standart biznesə dair rabitə əlaqələri CMS heyəti tərəfindən CMS çərçivəsində və ya üçüncü tərəflərlə aparılan bütün rabitə əlaqələrinə dair prinsip və qaydalar dəstindən ibarətdir. Bu standartlar poçt, elektron sənədləri, ani mesajlar, İnternet səhifələri, sosial şəbəkə alətləri. CMS rəsmi İnternet səhifəsinə yerləşdirmə, kağız formatında olan sənədlər, faks, səs və səsli poçt qeydləri də daxil olmaqla, hər cür bildirişlərə tətbiq edilir. Email və ya sosial şəbəkə formasında bəzi vasitələr üçün əlavə müddəalar tətbiq edilir.

SİZİN MƏSULİYYƏTİNİZ

Siz CMS-in bizneslə bağlı rabitə əlaqə standartlarına əməl etməlisiniz. Bunun edilə bilməməsi CMS-in reputasiyasına zərər vurur. Məcburi qaydalara riayət etməmək nizam-intizam və ya hüquqi hərəkətlə nəticələnir.

PRİNSİPLƏR

- öz bizneslə bağlı rabitə əlaqələriniz zamanı:
  - çaşdırıcı məlumat vermək olmaz;
  - ziddiyyətli rəylər yazmaq olmaz;
  - şişirtmək olmaz;
  - həssas və ya məxfi məsələlər barəsində "qeyri-ciddi söhbət" etmək olmaz; və
  - ciddi məsələlərlə bağlı zarafat etmək olmaz
- Rabitə əlaqəsinin hansı CMS şöbəsindən olduğunu açıqlayın

- Bütün müvafiq standart və müddəalara əməl edin. Buraya xüsusən də aşağıdakılar aiddir:
  - İctimaiyyət üçün məlumatı açıqlayarkən Açıqlamamaya dair Müqavilənin şərtlərinə əməl edin:
  - rabitə əlaqələrini müvafiq idarəetmə səviyyəsinə uyğun təsnifatlandırın ( hər hansı mövzunun aid olduğu səviyyə) və tələb olunarsa, öz bildirişinizi kodlaşdırın;
  - rəqiblərlə rabitə əlaqələrinin antitrast qanunlarını poza biləcəyini unutmayın;
  - əgər siz şəxsi məlumatlarla məşğul olursunuzsa, CMS-in özəllik siyasətinə riayət edin;
  - məlumatların başqa ölkələrə göndərilməsi və ya onlardan qəbulunun qadağan edilmədiyini və müvafiq lisenziyaların qanunla tələb edildiyi hallarda əldə edildiyini təmin edin; və
  - Sosial şəbəkə və email kimi əlavə vasitələrə dair müddəaları oxumuş olduğunuzu təmin edin.

ÖZÜNÜ YOXLAMAQ

- Əgər belə rabitə əlaqəsi ictimaiyyət üçün açıq olarsa, bundan özünüzü narahat hiss edərdinizmi?
- Əgər bu məhkəmə prosedurаları zamanı sübut kimi istifadə edilsə idi, bundan özünüzü narahat hiss edərdinizmi?
- Bu rabitə əlaqəsi qanunidirmi?
- Belə rabitə əlaqəsini qurmağa gərək varmı?
- Rabitə əlaqəsi saxlamağın ən üstün yolu hansıdır?

## 2.0 İCTİMAİYYƏTƏ AÇIQLAMA

CMS adından açıq şəkildə edilən istənilən yazılı və ya şifahi bildiriş ictimaiyyətə açıqlama hesab edilir. CMS kimi adı açıqlanan şirkətlər öz biznesinə dair məlumatı ictimaiyyətə açıqlamalıdır. Açıqlanmış belə məlumat doğru, dürüst, məntiqi baxımdan uyğun olmalı və çaşdırıcı olmamalıdır.



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

### SİZİN MƏSULİYYƏTİNİZ

Əgər bunu etmək üçün səlahiyyətiniz olmazsa, CMS biznes fəaliyyətləri barədə ictimaiyyətə açıqlamalar etməməlisiniz və məxfi məlumatları qorumalısınız. Əgər məlumatı açıqlamaq səlahiyyətiniz olarsa, onun doğru, dəqiq, məntiqi uyğun olması və çaşdırıcı olmamasını təmin etməlisiniz. CMS maliyyə qeydlərinin sizin məsuliyyət daşıdığınız əməliyyatları və CMS-in maliyyə mövqeyini ədalətli əks etdirməsini təmin edin.

İctimaiyyət üçün açıqlamalar etməzdən əvvəl siz CMS açıqlama siyasətinə əməl etməlisiniz. CMS marketinq şöbəsinin icazəsi olmadan mətbuatla və CMS-in biznesin inkişafı mütəxəssislərinin icazəsi olmadan investisiya qurumları ilə iş birliyi qurmamalısınız.

İctimaiyyətin aldadılması qanunvericiliyin pozuntusu hesab edilir. Qeyri-dəqiq və gecikdirilmiş məlumatların açıqlanması CMS reputasiyası və onun səhmlərinin qiymətinə zərər vurur. CMS və cəlb olunmuş fərdlər təhqiqat, təqib, müvəqqəti fəaliyyətin dayandırılması və cərimələrə səbəb olur.

## 8. CMS-İN ÜMUMİ BİZNES PRİNSİPLƏRİ

### PRİNSİPLƏR

- İctimaiyyət üçün açıqlamaların doğru, dürüst, məntiqi ardıcıl olması və çaşdırıcı olmamasını təmin edin.
- Məxfi məlumatları qoruyun.
- Standartlara əməl edin və ictimaiyyət üçün açıqlamaları yalnız bunu üçün icazəniz olduğu halda edin.
- CMS məlumatlarının itirilməsi və ya oğurlanmasına dair məlumatı tabe olduğunuz rəhbər və ya supervayzerinizə bildirin.
- Əgər CMS barədə qiymətə aid həssas məlumatlara malik olduğunuza inanırsınızsa, müvafiq prosedurlara əməl edin
- Tətbiq edilən bütün qanun-qaydalara əməl edin.
- Tələb olunan icazələr alınmış olmazsa, mətbuat və ya investor icması ilə iş birliyi qurmaq olmaz.

### ÖZÜNÜ YOXLAMAQ

- Sizin məlumat doğru və dürüstdürmü?
- Siz şirkətin marketinq və ya biznesin inkişafı üzrə mütəxəssislərindən icazə almısınızmı?



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

- Qiymətə dair həssas məlumatlara maliksinizmi?
- Siz hadisəni tamlığı ilə söyləmisinizmi?

## 1.0 Prinsiplərə əsasən Yaşamaq

Bizim səmimiyyət, prinsipiallıq və insanlara hörmətin paylaşılan əsas dəyərlərimiz etdiyimiz bütün işləri dəstəkləyir və bizim Biznes Prinsiplərimizin əsasını təşkil edir.

Biznes Prinsipləri istər böyük və ya istərsə də kiçik olan bütün əməliyyatlara tətbiq edilir və bütün zamanlarda öz biznesinin həyata keçirilməsində hər Şöbədə işləyən işçidən gözlənilən davranışı formalaşdırır.

Biz nə cür hərəkət ediriksə, o cür mühakimə edilirik. Əgər qanuna uyğun hərəkət etməsək, Biznes tərəfdaşlarımız belə qanunlar və ya onlara ekvivalent prinsiplərə uyğun hərəkət etməzsə, bizim reputasiyamıza zərər dəyər.

Öz nümunəsi əsasında yönləndirmək, bütün işçilərin belə prinsiplərdən xəbərdar olduqlarını təmin etmək və bu bəyannamənin məramına uyğun hərəkət etməyə görə rəhbərlik məsuliyyət daşıyır.

Bu prinsiplərin tətbiqi işçilərimizin bu prinsipləri başa düşdüklərindən əmin olmaq və işçilərin onlara uyğun hərəkət etdiklərini təsdiqləmək üçün nəzərdə tutulmuş müfəssəl təminat prosedurаları dəsti ilə dəstəklənir.

Təminat sisteminin tərkib hissəsi kimi, rəhbərlik həm də işçiləri narahatlıqları və riayət etməmə hallarını bildirmək üçün təhlükəsiz və məxfi kanalla təmin etməyə görə məsuliyyət daşıyır. CMS işçiləri isə, Biznes Prinsiplərinin güman edilən pozuntularını CMS-ə bildirməyə görə məsuliyyət daşıyırlar.

Uzun illərdən bəri Biznes Prinsipləri bizim biznesi həyata keçirmək tərzimiz üçün əsas olmuş və onlara uyğun yaşamaq bizim davamlı müvəffəqiyyətimiz üçün mühüm əhəmiyyət kəsb edir.

## 2.0 Bizim Dəyərlər

CMS işçiləri səmimiyyət, prinsipiallıq və insanlara hörmət kimi mühüm dəyərlər dəstini paylaşır. Biz həmçinin etibar, açıqlıq, komanda işi və peşəkarlıq kimi dəyərlərin fundamental vacibliyinə tam inanır və bununla qürur duyuruq.

## 3.0 Davamı İnkişaf

Biznes Prinsiplərinin tərkib hissəsi kimi, biz davamlı inkişafa öz töhfəmizi verməyə sadiqik. Bu bizdən qısa və uzun-müddətli maraqları tarazlaşdırmaq, iqtisadi, ekoloji və sosial məsələləri biznesə dair qərar çıxarmağa daxil etməyi tələb edir.



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

**4.0 Məsuliyyətlər**

CMS şöbələri beş məsuliyyət sahəsini tanıyır. Prioritetləri davamlı qiymətləndirmək və belə bir-birindən ayrılmaz məsuliyyətləri həmin qiymətləndirmə əsasında həvalə etməyə görə rəhbərlik cavabdehlik daşıyır.

a. Səhmdarlar

Səhmdarların investisiyalarını qorumaq və sənayedə olan digər aparıcı şirkətlərlə rəqabət şəraitində investisiyadan uzun-müddətli əvəz ödənişləri təmin etmək.

b. Müştərilər

Qiymət, keyfiyyət, təhlükəsizlik və ekoloji təsir nöqteyi-nəzərindən qiymət təklif edən və texnoloji, ekoloji və kommersiya ekspertizası ilə dəstəklənən məhsul və xidmətləri hazırlayaraq və təmin edərək müştəri qazanmaq və saxlamaq.

c. İşçilər

İşçilərin insan hüquqlarını qorumaq, onları yaxşı və təhlükəsiz iş şərtləri, rəqabətli məşğulluq şərt və müddəaları ilə təmin etmək.

İstedadlı işçilərimizin inkişafı və ən üstün şəkildə istifadəsini yüksəltmək; hər bir işçinin öz bacarıq və istedadlarını inkişaf etdirmək üçün bərabər imkanlara malik olacaqları əhatəli iş mühiti yaratmaq. İşçiləri onların işinin planlaşdırılması və yönləndirilmsinə cəlb olunmağa ruhlandırmaq, onları narahatlıq doğuran məsələləri bildirmək üçün müvafiq kanallarla təmin etmək.

Biz kommersiya uğurlarının bütün işçilərimizin tam sədaqətindən asılı olduğunu qəbul edirik.

d. Biznes həyata keçirdiyimiz tərəflər

Podratçı, təchizatçı və müştərək müəssisələrlə qarşılıqlı mənfəətli münasibətlər qurmaq, belə qarşılıqlı münasibətlərdə CMS-in Ümumi Biznes Prinsipləri və ya ekvivalent prinsiplərinin tətbiqini genişləndirmək. Bu prinsiplərin effektiv tətbiqi qabiliyyəti belə münasibətləri qurmaq və ya saxlamaq üçün qəbul edilən qərar verilən zaman vacibdir.

e. Cəmiyyət

Biznesi cəmiyyətin məsuliyyəti korporativ üzləri kimi həyata keçirmək, tətbiq edilən qanun-qaydalara əməl etmək, biznesin qanuna uyğun roluna uyğun fundamental insan haqlarını dəstəkləmək, sağlamlıq, təhlükəsizlik və ətraf mühitə lazımi diqqət yetirmək.

## 5.0 CMS-in Ümumi Biznes Prinsipləri

**Prinsiplər 1: İqtisadi məsələ**

Uzun-müddətli mənfəətlilik bizim biznes məqsədlərimiz və davamlı artıma nail olunmağımız baxımdan mühümdür. Bu, səmərəlilik və müştərilərin CMS xidmətlərinə verdiyi dəyərin ölçüsüdür. Müştəri ehtiyaclarını qarşılamaq üçün gələcək enerji təchizatının inkişafı və hasilatı üçün tələb edilən davamlı investisiya məqsədilə zəruri olan korporativ resursları təchiz edir. Mənfəət və güclü maliyyə əsası olmadan bizim məsuliyyətləri həyata keçirmək mümkün deyil. İnvestisiya və investisiyanın özgəninkiləşdirilməsinə dair qərarlar üçün meyara davamlı inkişaf məsələləri (iqtisadi, sosial və ekoloji) və investisiya risklərinin qiymətləndirməsini daxil edir.

**Prinsip 2: Rəqabət**

CMS azad sahibkarlığı dəstəkləyir. Tətbiq edilən rəqabət qanunları çərçivəsində biz ədalətli və etik rəqabət aparmaq istəyirik; başqalarının bizimlə azad rəqabət aparmasının qarşısını almırıq.

**Prinsip 3: Biznesdə Prinsipiallıq**

CMS bizim biznesin bütün aspektlərində səmimiyyət, prinsipiallıq və ədalətdə israr edir və eyni münasibətləri bizim biznes apardığımız bütün tərəflərdən gözləyir. Birbaşa və ya dolayı təklif, ödəniş, rüşvətin hər hansı formada tələb edilməsi və ya qəbulu yolverilməzdir. Asanlaşdırıcı ödənişlər də rüşvət hesab edilir və verilməməlidir. İşçilər öz özəl fəaliyyətləri və şirkətin biznesinin aparılmasında oynadıqları rolda ziddiyyətlərə yol verməməlidir. İşçilər həm də öz şirkətlərinə potensial maraqları bəyan etməlidirlər. CMS adından aparılan bütün biznes əməliyyatları şirkətin hesablarında təsbit edilmiş proseduralara uyğun dəqiq və ədalətli əksini tapmalı, audit edilməli və açıqlanmalıdır.

**Prinsip 4: Sağlamlıq, Təhlükəsizlik və Ətraf mühit**

CMS işdə davamlı təkmilləşməyə nail olmaq üçün sağlamlıq, təhlükəsizlik və ətraf mühitin idarə edilməsinə sistematik yanaşmaya malikdir.

Bu məqsədlə CMS belə məsələləri kritik biznes fəaliyyətləri kimi idarə edir, təkmilləşdirmə üçün standart və hədəfləri müəyyən edir və iş icrasını ölçür, qiymətləndirir və kənar tərəfə bildirir.

Biz davamlı olaraq, öz əməliyyat, məhsul və xidmətlərinin ətraf mühitə təsirlərini azaltma yollarını arayırıq.

**Prinsip 5: Yerli icmalar**

CMS bizim birbaşa və ya dolayısı ilə işlədiyimiz icmaların ümumi rifahına töhfə vermək üsullarımızı davamlı yaxşılaşdırmaqla yaxşı qonşuluq etmək məqsədi daşıyırıq.

Biz biznes fəaliyyətlərimizin sosial təsirlərini idarə edir, yerli icmalara mənfəəti artırmaq üçün başqaları ilə işləyir və fəaliyyətlərimizin hər hansı mənfi təsirlərini yüngülləşdiririk.

Bundan əlavə, CMS bizim biznesimizlə birbaşa və ya dolayı bağlı olan sosial məsələlərə yaradıcı maraq nümayiş etdirir.

**Prinsip 6: Rabitə əlaqəsi və Birgə iş**

CMS bizim tərəfdaşlarımızla müntəzəm dialoq və iş birliyinin mühüm olduğunu tanıyır. Öz mühüm biznes məxfiliyi məsələlərinə əsasən, qanuni maraqları olan tərəflərin tam layiq olduqlarını təmin edərək öz iş icramızı bildirməyə sadiqik.

İşçi, biznes tərəfdaşları və yerli icmalarla qarşılıqlı əlaqələrimizdə biz onları səmimiyyət və məsuliyyətlə dinləmək və cavablandırmağa çalışırıq

**Prinsip 7: Riayətetmə**

Biz işlədiyimiz ölkələrin tətbiq edilən bütün qanun-qaydalarına əməl edirik.



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*

# LÜĞƏT

Xeyriyyə ödənişləri
Xeyriyyə təşkilatı, ondan haqq tutulmadan sponsorluğa verilən dəyərə malik istənilən şey və ya hər hansı icma inkişaf xərci.
Davranış Kodu
Sizdən gözlənilən və sizin CMS-dən gözlədiyiniz davranışı təsvir edən dəyər, etika, qayda və prinsiplər.
Rəqib
Oxşar məhsul və ya xidməti təklif edən və eyni sənaye sahəsində olan şirkət.
Normativ-hüquqi Uyğunluğa görə məsul Rəhbər
Riayət etmə fəaliyyətləri ilə bağlı hadisələr və biznes riskini izləyir.
Məxfi biznes məlumatı
Məlumat və verilənlər qorunmalı və icazəsi olmayan heç bir tərəflə paylaşılmamalıdır.
Müştərilər
CMS müştəri və alıcılarının məhsul və xidmətləri.
Asanlaşdırıcı ödəniş
İnzibati prosesi sürətləndirmək üçün edilən ödəniş.
Dövlət rəsmisi
Dövlət (yerli və ya milli), yaxud da dövlətin tamlığı ilə və ya qismən nəzarət etdiyi şirkətin işçisi; siyasi partiyanın rəsmisi; beynəlxalq təşkilatın işçisi və ya yuxarıda sadalananlardan hər hansı birinin ailə üzvü.
Qeyri-müvafiq hədiyyə
Qeyri-məqbul dəyər, xarakter və ya qeyri-məqbul şərtlər altında təklif edilən və ya qəbul edilən hədiyyə.
Əqli mülkiyyət
Patent hüquqları, istifadə modelləri, əmtəə və xidməti nişanlar, domen adları, müəllif hüququ (o cümlədən proqram təminatının müəllif hüququ), tərtibat hüquqları, məlumatlar bazasından çıxarış hüquqları, nou-xau və ya digər məxfi (bəzən "ticarət sirri" və ya "özəl" sirr adlanır) məlumat hüquqları və IP ilə bağlı razılaşmaları daxil edir.
Nominal dəyər malik elementlər
Cüzi dəyərə malik məsələn, konfrans qələmi və bir fincan kofe kimi elementləri daxil edir.
Müştərək müəssisə
Biznes fəaliyyətini birgə həyata keçirmək üçün CMS və digər tərəflər arasında yaradılmış hüquqi qurum.
Tərəfdaş
CMS ilə hər hansı müştərək müəssisəyə cəlb olunmuş təchizatçı, müştəri, agent və ya digər tərəf.
Məhdudiyyət və ya qadağalar
İcazə verilən və verilməyən məsələləri tənzimləyən məhdudiyyətlər. Məsələn ölkəyə hansı növdən olan malların gətirilməsi məsələsi.
Sosial Fəaliyyət
CMS-in öz biznesinin fəaliyyət göstərdiyi icma və cəmiyyətlərə təsirini nə cür idarə etməsi.
CMS-in mühüm dəyərləri
Səmimiyyət, prinsipiallıq və insanlara hörmət.
CMS-in Ümumi Biznes Prinsipləri
CMS-in öz məsələlərini idarə etmə üsulu.
CMS-in Qlobal Yardım xətti
Hüquqi və riayət etməmə hadisələri, qeyri-müəyyənlik və narahatlıq doğuran məsələlərinin bildirilməsi və ya məsləhətin alınması üçün bütün işçilərə təmin edilir.
Tərəfdaş
CMS biznesində maraqları olan şəxs, qrup, təşkilat və ya sistem
Supervayzer
Sizə göstəriş və/ya əmrlər vermək səlahiyyətinə malik şəxs.
Dəyər hədləri
Qəbul edilə və ya təklif oluna biləcək hədiyyə, qonaqlıq və ya əyləncənin qəbul edilmiş dəyəri.



*NƏZARƏT ALTINDA OLAN ORİJİNAL NÜSXƏ" İŞARƏSİ İLƏ NİŞANLANMADAN ÇAP OLUNMUŞ NÜSXƏLƏR NƏZARƏTSİZDİR VƏ VAXTI KEÇMİŞ OLA BİLƏR.*